# ŞƏRQ qapısı



Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 110 (21.771)

10 iyun 2017-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Vətənə, yurda bağlılığın Heydər Əliyev nümunəsi

***Ulu öndər Heydər Əliyev böyük mütəfəkkirlərin, sərkərdələrin, dahilərin vətəni olan Naxçıvanın yetişdirdiyi şəxsiyyətlərin fövqündə dayanan əvəzolunmaz liderdir. O, bütün həyatı boyunca Vətəninə, xalqına bağlılıq nümunəsi göstərib, ölkəmizin, o cümlədən doğulub boya-başa çatdığı Naxçıvanın inkişafı, yüksəlişi, təhlükəsizliyinin təmini üçün əlindən gələni əsirgəməyib.***



Qədim diyarda dünyaya göz açan, boya-başa çatan gələcəyin böyük dahisi ilk təhsilini də Naxçıvanda alıb, 1939-cu ildə pedaqoji məktəbi uğurla bitirib. Ulu öndərimiz təhsilinin həmin mərhələsini yüksək qiymətləndirərək deyib: ***“Mən həmişə Naxçıvanda təhsil aldığım illəri xatırlayıram. Bu illər mənim yaddaşımdan heç vaxt silinməyəcək... Mən burada mükəmməl təhsil almışam, özü də elə həvəs və aludəciliklə oxumuşam ki, sonralar digər ali təhsil müəssisələrində oxumaq mənim üçün çətin olmayıb”.***

Dahi şəxsiyyət yüksək vəzifələrdə çalışdığı illərdə də heç vaxt Naxçıvanı unutmayıb, qədim diyarı daim diqqət mərkəzində saxlayıb. Azərbaycanda ilk dəfə hakimiyyətə gəldiyi 1969-cu ilin iyul ayının 14-dən sonrakı dövrdə ölkəmizin, o cümlədən Naxçıvanın inkişafı, gələcəyi ilə bağlı çox mühüm qərarlar qəbul edib. Belə ki, 1970-ci illərə qədər Naxçıvan Azərbaycanın digər bölgələrinə, xüsusən Dağlıq Qarabağ Muxtar Vilayətinə nisbətən xeyli geridə idi və sənaye məhsulunun artım sürətinə görə keçmiş SSRİ-nin muxtar respublikaları arasında axırıncı yerlərdə qərar tuturdu. Bu geriliyin aradan qaldırılmasında və Naxçıvanın inkişaf yoluna çıxmasında ulu öndərin birbaşa göstərişi və rəhbərliyi ilə hazırlanmış Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin “Naxçıvan MSSR-in xalq təsərrüfatının daha da inkişaf etdirilməsi tədbirləri haqqında” 1974-cü il 8 yanvar tarixli birgə qərarının mühüm rolu olub. Sənəddə muxtar respublikanın sosial-iqtisadi, mədəni inkişafının təmin edilməsi üçün müvafiq orqanlar qarşısında konkret vəzifələr qoyulub, onların icra müddəti müəyyənləşdirilib. Qərarda nəzərdə tutulmuş bütün vəzifələr vaxtında yerinə yetirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin dövrü dəyərləndirərək deyib: ***“Naxçıvanın inkişafı ulu öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. İlk növbədə, ona görə ki, Naxçıvan Azərbaycan xalqına böyük şəxsiyyət ulu öndər Heydər Əliyevi bəxş etmişdir. Ulu öndər bütün dövrlərdə Naxçıvana böyük diqqət göstərmişdir. 1970-1980-ci illərin əvvəllərində respublikanın sosial-iqtisadi inkişafı üçün çox böyük işlər görmüşdür. O vaxt Azərbaycanın hər bir yerində olduğu kimi, Naxçıvanda da sürətli inkişaf dövrü müşahidə edilirdi. Ulu öndərin rəhbərliyi ilə Azərbaycan 1980-ci illərin əvvəllərində sovet məkanında ən qabaqcıl yerlərdə idi, o cümlədən Naxçıvanda da böyük sosial quruculuq işləri aparılırdı. Naxçıvanın sənaye potensialı formalaşırdı. Bir sözlə, muxtar respublika öz inkişaf dövrünü yaşayırdı”.***

Böyük tarixi şəxsiyyət muxtar respublikada aparılan quruculuq-abadlıq işlərinin vəziyyəti ilə tanış olmaq üçün 1970-1982-ci illərdə 4 dəfə qədim diyarda səfərdə olub. İlk səfər 1974-cü il fevralın 22-də reallaşıb. Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində saxlanılan Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin büro iclaslarının protokollarından da aydın olur ki, daha sonra 1978-ci il oktyabrın 15-də, 1980-ci il mayın 24-də, 1982-ci il oktyabrın 2-də reallaşan səfərlərin hər birində Naxçıvanın gələcəyi üçün mühüm qərarlar qəbul edilib, gələcək perspektivə hesablanmış addımlar atılıb.

Aparılan kompleks tədbirlər sayəsində 1970-1982-ci illərdə muxtar respublikanın sənaye potensialı, təxminən, üç dəfə yüksəlib. Həmin illərdə Araz çayı üzərində iri su anbarı və elektrik stansiyası, habelə 16 iri sənaye müəssisəsi tikilib istifadəyə verilib. Bütün bu genişmiqyaslı quruculuq fəaliyyəti nəticəsində Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun ümumi həcmi 1985-ci ildə 1970-ci ilə nisbətən 4,6 dəfə artıb.

SSRİ kimi nəhəng dövlətin rəhbərlərindən biri olan xalqımızın böyük oğlu Heydər Əliyev Moskvada, necə deyərlər, ucu-bucağı görünməyən bir ölkənin problemlərinin həlli ilə məşğul olsa da, bir an belə, doğma Naxçıvanı unutmayıb. O, muxtar respublikada görülən quruculuq işlərini həmişə yaxından izləyib, tövsiyə və tapşırıqlarını əsirgəməyib, ermənilərin Naxçıvana və Dağlıq Qarabağa iddialarına qarşı ciddi mübarizə aparıb. Təsadüfi deyil ki, ulu öndər 1987-ci ilin noyabr ayında rəhbər vəzifədən uzaqlaşdırılandan dərhal sonra Azərbaycanın ağrı-acılarla dolu dövrü başlayıb.

Ümummilli lider Moskvada rahat yaşaya bilərdi. Ancaq dahi şəxsiyyət sakitliyi və rahatlığı deyil, Vətəninin taleyini düşünürdü. Buna görə də O, Vətənə qayıtmaq istəyirdi. Naxçıvanlılar da qədim diyarın yetişdirdiyi böyük dövlət xadiminin gəlişini səbirsizliklə gözləyirdilər. Onun 1990-cı il iyulun 22-də möhtəşəm qayıdışını doğulub boya-başa çatdığı Naxçıvan torpağı, əhali hədsiz sevgi, məhəbbət və inamla qarşıladı. Xəyanətə yol vermiş mərkəzi hakimiyyətin bütün cəhdlərinə baxmayaraq, naxçıvanlılar qısa müddətdə ulu öndəri özlərinə rəhbər seçdilər, onun ətrafında sıx birləşdilər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun dediyi kimi: ***“Moskvadan Naxçıvana qayıdış o dövrün bəzi qəzetlərində yazıldığı kimi, əyalət mərkəzinə yox, Vətənə qayıdış idi, böyük siyasətə yenidən və fəal şəkildə, birmənalı, ardıcıl, qətiyyətli qayıdış idi”.***

Dahi şəxsiyyət hər zaman olduğu kimi, öz gəlişi ilə Naxçıvana yeni nəfəs gətirdi, ağır blokada şəraitində olmasına baxmayaraq, bu qədim diyarı dirçəltməyə başladı. Burada muxtar respublika üçün deyil, bütün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən, dövlət quruculuğu prosesində mayak rolunu oynayan qərarların qəbul edilməsinə nail oldu.

Ali Məclisin Sədri həmin dövrü belə xarakterizə edir: ***“Ulu öndər Heydər Əliyev Naxçıvanda siyasi fəaliyyət göstərdiyi qısa zaman kəsiyində muxtar, demokratik və dünyəvi dövlət yaradılması üçün mühüm siyasi və ideoloji amilə çevrilən tarixi qərarlar qəbul etdi. Azərbaycanın müstəqil dövlət kimi sonrakı fəaliyyətinin bir sıra konseptual istiqamətləri məhz bu dövrdə işlənib hazırlandı. İlk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Dövlət Bayrağı kimi qəbul olundu”.***

Ümummilli liderimizin Naxçıvana gəlişi, xalqın təkidli tələbi ilə muxtar respublikanın rəhbəri seçilərək son dərəcə ağır vəziyyətdə olan bu ulu diyarı mətanətlə qoruması, əsl nicat yoluna çıxararaq hərtərəfli yüksəlişə qovuşdurması böyük əhəmiyyət daşımaqla, bütövlükdə, ölkəmiz üçün mühüm bir hadisəyə çevrilmişdir. Ali Məclis Sədrinin sözləri ilə ifadə etsək, ***“Azərbaycanın bu qədim torpağını xilas edən Heydər Əliyev özünə Naxçıvan boyda əbədi, həmişəyaşar abidə ucaltdı”.***

Böyük dövlət xadiminin Naxçıvandakı idarəetmə uğurlarını görən xalqımız ölkədəki xaos və anarxiyanı aradan qaldırmaq, Azərbaycan dövlətçiliyini xilas etmək naminə Onun ölkə rəhbərliyinə gətirilməsini tələb etməyə başladı. Ancaq ulu öndər canı qədər sevdiyi doğma Naxçıvandan ayrılmaq istəmirdi. Digər tərəfdən xalqının görkəmli oğlu, alovlu vətənpərvər bu acı hadisələrə laqeyd də qala bilməzdi. Necə ki, qalmadı.

Ölkəmizə ikinci dəfə rəhbərliyi illərində ümummilli liderimiz Naxçıvan Muxtar Respublikasından diqqət və qayğısını əsirgəmədi. 1969-cu ildən başlanan quruculuq və inkişaf xətti Naxçıvanda fəal, yaradıcı surətdə davam etdirildi. Bu quruculuq və inkişaf konsepsiyası sonrakı illərdə özünü tam doğruldaraq bir idarəetmə modeli kimi tarixə düşdü. Fəaliyyətini dayandırmış sənaye müəssisələrinin yenidən işə salınması və yeni müəssisələrin yaradılması sayəsində 1993-2003-cü illərdə muxtar respublikada sənaye məhsulu 3,4 dəfə artdı. Həmin dövrdə 15 inzibati bina, 60 elm və təhsil müəssisəsi, o cümlədən 16 min 38 şagird yerlik 55 ümumtəhsil məktəbi, 43 mədəniyyət obyekti, 28 səhiyyə müəssisəsi, 5 idman obyekti, 24 nasos stansiyası, 135 subartezian quyusu, 34 körpü, 6 ticarət mərkəzi, əlil, məcburi köçkün, qaçqın, şəhid ailələri, təbii fəlakətdən zərərçəkənlər və digər bu kimi kateqoriyalardan olan şəxslər üçün 47 fərdi ev, 123 istehsal və xidmət obyekti tikilərək istifadəyə verildi. Ümumi daxili məhsulun həcmi 6,8 dəfə, əhalinin gəlirləri isə 10,5 dəfə artdı. Bütün bu misilsiz nailiyyətlərin hamısı böyük dövlət xadimi Heydər Əliyev siyasi kursunun yüksək səviyyədə, ardıcıl və dönmədən davam etdirilməsi nəticəsində qazanıldı. Bu möhtəşəm təlim sabahkı uğurlarımızın da etibarlı qarantıdır. Azərbaycanın özü kimi əbədi olan Heydər Əliyev ideyaları yolumuzu işıqlandıran sönməz məşəldir.

***“Siz sübut etdiniz ki, öz torpağınıza, xalqınıza, millətinizə müqəddəs, müstəqil Azərbaycana sədaqətlisiniz və mənim də həm Azərbaycan xalqına, həm də Azərbaycan torpağına, o cümlədən öz doğma yurdum Naxçıvana sədaqətimin şahidi oldunuz”***, – deyən ulu öndər Naxçıvan Muxtar Respublikasında görülən genişmiqyaslı işləri daim dəstəklədi. Burada aparılan kompleks quruculuq işləri ilə yaxından tanış olmaq, bir sıra sosial, ictimai obyektlərin açılışında iştirak etmək üçün muxtar respublikaya 4 dəfə səfər etdi. Birinci səfər 1996-cı il oktyabrın 29-da, ikincisi 1999-cu il oktyabrın 10-da, digərləri isə 2002-ci il iyunun 15-də və həmin il avqustun 10-da reallaşdı.

Ulu öndərin Naxçıvanın bu günü və gələcəyi üçün gördüyü ən böyük işlərdən biri də qədim diyarın muxtariyyətinin qorunub saxlanılması oldu. 1995-ci il noyabrın 12-də referendumla qəbul edilmiş, onun müəllifi olduğu müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası Naxçıvanın muxtariyyət statusunu hüquqi cəhətdən möhkəmləndirdi. Həmin Konstitusiyanın VIII fəsli Naxçıvan Muxtar Respublikası ilə əlaqədardır. Konstitusiyanın 134-cü maddəsində deyilir: *“Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Naxçıvan Muxtar Respublikasının statusu bu Konstitusiya ilə müəyyən edilir. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir”.*

Ümummilli lider Heydər Əliyevin ölkə Prezidenti kimi “Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinin keçirilməsi haqqında” imzaladığı 1999-cu il 4 fevral tarixli Fərmanında Naxçıvanın muxtariyyətini şərtləndirən başlıca tarixi-coğrafi amillər belə ifadə olunub: *“Azərbaycan Xalq Cümhuriyyəti dövründək sərhədlər alt-üst edilməyə başlandı. İlk olaraq Azərbaycan torpağı Zəngəzur mahalı Ermənistan SSR-in tərkibinə qatıldı. Əslində isə ermənilərin planları daha geniş idi və onların torpaq iddialarının əsas hədəfi məhz Naxçıvan idi. Onlar Zəngəzurun Ermənistana ilhaq edilməsini bu yolda atılmış mühüm addım hesab edirdilər. Beləliklə də, Naxçıvanı Azərbaycandan ayıran Azərbaycan torpaqlarının – Zəngəzur mahalının Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini zəruri etdi”.*

Ulu öndər həmişə Naxçıvanın sosial-iqtisadi baxımdan inkişaf etməsini, abadlaşmasını istəyirdi. Bu gün onun yolunu uğurla davam etdirənlər dahi şəxsiyyətin arzularını inamla həyata keçirirlər. Ümummilli liderin müəyyənləşdirdiyi hədəflər istiqamətində inamlı addımlar atılır. Belə ki, muxtar respublikada ümumi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul istehsalının həcmi 1995-ci illə müqayisədə 59,1 dəfə artaraq 2016-cı ildə 2 milyard 582 milyon manatdan çox olub. Bu dövr ərzində sənaye məhsulunun həcmi 103,2 dəfə, kənd təsərrüfatı məhsulunun həcmi 11,1 dəfə artıb. Yerli istehsalın artması daxili bazarda məhsul bolluğu yaratmaqla bərabər, muxtar respublikanın ixrac potensialını gücləndirib, idxalın həcminin isə azalmasına səbəb olub. Nəticədə, 2009-cu ildən muxtar respublikanın xarici ticarət dövriyyəsində müsbət saldo qeydə alınıb, ixracın həcmi idxalı üstələyib. Həmin dövrdə xarici ticarət dövriyyəsinin 51 faizini ixrac, 49 faizini isə idxal təşkil edib. Təkcə 2014-cü il 1 yanvar tarixdən 2017-ci il 1 aprel tarixədək muxtar respublikanın rayon mərkəzlərində, qəsəbə və kəndlərində infrastruktur obyektlərinin yaradılması istiqamətində, ümumilikdə, 698 infrastruktur obyekti istifadəyə verilib, 72 infrastruktur obyektinin inşası davam etdirilib.

***Qazanılan bu nailiyyətlər bir daha deməyə əsas verir ki, Naxçıvanda Heydər Əliyev siyasi xətti uğurla, sədaqətlə davam etdirilir. Sosial-iqtisadi inkişafla bağlı qəbul edilmiş dövlət proqramlarının dəqiq icrası, islahatların günün tələbləri səviyyəsində aparılması Naxçıvanın sürətli inkişafını və yüksəlişini şərtləndirir. Bu isə məhz ulu öndərimiz Heydər Əliyevin arzularındakı Naxçıvandır. Gündən-günə çiçəklənən, inkişaf edən, abadlaşan Naxçıvan.***

**Rauf KƏNGƏRLİ**

Quruculuq

# Naxçıvan şəhərində və Babək rayonunda yeni obyektlər inşa olunur

***Ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da ali təhsil ocaqları üçün yeni tədris obyektlərinin istifadəyə verilməsi artıq ənənə şəklini alıb. Müasir tələblər səviyyəsində inşa olunan yeni tədris korpusları muxtar respublikada təhsilin məzmunca yenilənməsinin və təhsil ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsinin parlaq təzahürüdür. Naxçıvan Dövlət Universitetinin 108 hektarlıq ərazisindəki müasir tədris binaları yenitipli universitet şəhərciyini daha da gözəlləşdirir.***



Ötən ilin mart ayından başlayaraq universitet şəhərciyi ərazisində İqtisad fakültəsi üçün yeni tədris korpusunun inşasına başlanılıb. Obyektdə genişmiqyaslı quruculuq işləri həyata keçirilib, ərazi abadlaşdırılıb. Hazırda yeni binada son tamamlama işləri gedir.

Binada inşaat işlərini həyata keçirən "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin iş icraçısı Fikrət Qaybalıyevdən aldığımız məlumata görə, burada istilik sistemi quraşdırılıb, kommunikasiya və elektrik xətləri çəkilib. Yeni korpusun ərazisində abadlıq işlərinə başlanılıb. İki mərtəbədən ibarət olan yeni binada 102 yerlik akt zalı, toplantı zalı, kompüter otağı, 21 auditoriya yaradılıb. Bu korpusda 792 tələbə təhsil ala biləcək.

Naxçıvan şəhərində inşaat işlərinin geniş vüsət aldığı daha bir obyekt isə Naxçıvançayın kənarında əhalinin asudə vaxtının səmərəli təşkilinə töhfə verəcək istirahət mərkəzidir. Mərkəzin binası zirzəmi ilə birlikdə dörd mərtəbədən ibarət olacaq.

"Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin adıçəkilən obyekt üzrə iş icraçısı Akif Quliyevin bildirdiyinə görə, binanın zirzəmisində avtomobillər üçün dayanacaq, bərbər, qadın gözəllik salonu, qazanxana və xidməti otaqlar fəaliyyət göstərəcək. Qalan mərtəbələr istirahət otaqları, kafelər və digər əyləncə obyektləri üçün nəzərdə tutulub. Burada idman zalı, üzgüçülük hovuzu, tədbirlər zalı qonaqların ixtiyarına veriləcək. İstirahət mərkəzinin yerləşdiyi ərazi abadlaşdırılacaq, müasir işıqlandırma sistemi qurulacaq, yaşıllaşdırma tədbirləri həyata keçiriləcək. Yeni tikilidə dövrün və şəhərin xarakterik xüsusiyyətləri əks olunacaq, burada Şərq memarlığı elementlərinə, xüsusilə Naxçıvan memarlıq məktəbinə aid üsluba geniş yer veriləcək. Memar Cəmil Quliyevin layihəsi əsasında inşa olunan bina tamamlandıqdan sonra şəhərin ən görməli yerlərindən birinə çevriləcək.

Obyektə yaxın ərazidə isə dəmir konstruksiyalar əsasında qurulan İstirahət və Əyləncə Mərkəzində işlər "Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyətinin kollektivinə həvalə edilib. Zirzəmi ilə birlikdə üç mərtəbədən ibarət olacaq binada bovlinq salonu və atış zalları yaradılacaq. Digər mərtəbələrdə isə kafe, uşaq və böyüklər üçün əyləncə yerləri və mağazalar fəaliyyət göstərəcək.

Naxçıvan Muxtar Respublikasında aparılan genişmiqyaslı quruculuq işləri zamanı yol tikintisinə xüsusi diqqət yetirilir. Son illər muxtar respublikada müasir standartlara uyğun avtomobil yolları salınıb, mövcud yol-nəqliyyat kompleksi təkmilləşdirilib, yeni körpülər tikilib. Yol-nəqliyyat infrastrukturunun gücləndirilməsi sahəsində reallaşdırılan layihələrin əsas məqsədi muxtar respublikanın sosial-iqtisadi inkişafını təmin etməkdir. Bu həm də dövlətin vətəndaşlara göstərdiyi qayğının təzahürüdür.

Muxtar respublikada magistral avtomobil yolları ilə yanaşı, kənd yollarının yenidən qurulması da diqqət mərkəzindədir. Naxçıvan Yol Təmir Tikinti İdarəsinin iş icraçısı Sabir Rəfiyevdən aldığımız məlumata görə, hazırda Babək rayonunun Şıxmahmud və Xəlilli kəndlərini Naxçıvan şəhərinə birləşdirən yolda yenidənqurma işləri aparılır. 7 kilometrə yaxın olan yolun hərəkət hissəsi genişləndirilib, 3 kilometr hissəyə asfalt örtüyü salınıb. Yeni çəkilən yolun eni 7,2 metr olacaq.

Qeyd edək ki, adıçəkilən kəndlərin suvarma suyu ilə təminatını yaxşılaşdırmaq üçün də müvafiq tədbirlər görülüb. Əhalinin rahatlığına xidmət edən bu tədbirlərin davamı olaraq cari ildə Uzunoba Su Anbarından çəkilən kanal əsaslı təmir olunur.

✍ **Nail ƏSGƏROV**

***Dünən Naxçıvan Biznes Mərkəzində Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının Naxçıvan Muxtar Respublikası İdarəsinin və "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin təşkilatçılığı ilə "Banklarda risklərin idarə edilməsi" mövzusunda seminar işə başlayıb.***

# Bank işçiləri üçün seminar işə başlayıb



Azərbaycan Bank Tədris Mərkəzi tərəfindən keçirilən seminarda muxtar respublikada fəaliyyət göstərən bank qurumlarının rəhbərləri və mütəxəssisləri iştirak edirlər. Bank işçiləri arasında geniş maraq doğuran seminarda risklərin mahiyyəti, kredit riskləri, əməliyyat, imic və strateji risklər, bazar və likvidlik riskləri, risklərin idarə edilməsi sistemləri modulları üzrə təqdimatlar keçirilib, diskussiyalar aparılıb.

Azərbaycan Bank Tədris Mərkəzinin direktoru Cavanşir Abdullayev bizimlə söhbətində bildirdi ki, bu tədbirin keçirilməsində əsas məqsəd Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən bank əməkdaşlarına risklərin idarə olunmasında yeni praktikanın tətbiqini mənimsətmək, risklərin minimumlaşdırılması sahəsində daha səmərəli alətlərin tətbiqi imkanlarını birgə müzakirə etməkdir. Mütəxəssis onu da vurğuladı ki, əslində, muxtar respublikada, bütövlükdə, kredit risklərinin idarə olunmasında çox yaxşı təcrübə vardır. Belə ki, ölkəmizdə geri qaytarılmasında problemlər olan kreditlərin həcmi, ümumilikdə, 9 faizdən yuxarı olsa da, Naxçıvanda bu rəqəm 1 faizdən də aşağı səviyyədədir. Bu da, öz növbəsində, muxtar respublikada kredit risklərinin idarə edilməsi üzrə işlərin yaxşı təşkil olunduğundan xəbər verir. Məlumdur ki, bu gün ölkəmizdə ən aşağı faiz dərəcəli kreditlər məhz Naxçıvanda təklif olunur. Təcrübə göstərir ki, yüksək faiz dərəcəli kreditlər daha riskli olur. Bununla yanaşı, ayrı-ayrı banklarda mövcud olan risk idarəedilməsi üzrə hələ də müəyyən çətinliklərin həll olunması, bankların Naxçıvan əhalisinə daha geniş bank xidmətləri göstərə bilməsi baxımından bu seminarın əhəmiyyəti yüksəkdir.

Azərbaycan Bank Tədris Mərkəzinin direktoru onu da bildirdi ki, Azərbaycan Bank Tədris Mərkəzi risklərin idarəedilməsi üzrə ölkəmizdəki digər banklara təlim və məsləhət xidmətləri verir, bu sahədə əldə olunmuş müsbət təcrübənin bölüşdürülməsinə, yeni texnologiyaların tətbiqinə çalışır. Ona görə də Naxçıvanda təşkil olunmuş bu tədbir bank sektoru kimi çevik uyğunlaşma tələb olunan bir sahədə risklərin idarə edilməsində daha çox biliklər əldə olunması baxımından faydalıdır. Bütün bunlar isə bankların gəlirlərinin artırılması, müştəri xidmətlərinin yaxşılaşması və insan resurslarının hazırlanması üçün zəruridir.

Qeyd edək ki, seminar bu gün öz işini davam etdirəcək və iştirakçılara sertifikatlar təqdim olunacaq.

✍ **Əli CABBAROV**

# Taxıl istehsalçılarının alıcı problemi yoxdur

## *Naxçıvan Muxtar Respublikası "Bərəkət Buğda Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti taxıl tədarükünə tam hazırdır*

***Muxtar respublikamızda əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılır, bu sahənin inkişafı üçün ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Taxılçılığın inkişafı, istehsalın artırılması belə məhsulların saxlanılması üçün anbarların əhəmiyyətini bir daha ortaya qoyur.***

Son illər 27 min ton tutuma malik uzunmüddətli və 20 min ton tutuma malik qısamüddətli taxıl ehtiyatı anbarlarının istifadəyə verilməsi bu strateji məhsulun tədarükündə mühüm rol oynayır. Qeyd edək ki, uzunmüddətli taxıl anbarı hər biri 3 min ton tutumu olan 9 bunkerdən ibarətdir. Burada yüksək texniki göstəricilərə malik müasir texnoloji avadanlıqlar quraşdırılıb. Həmçinin işçilərə normal iş şəraiti yaradılıb, 8 iş otağı, yeməkxana, laboratoriya və digər yardımçı otaqlardan ibarət inzibati bina tikilib istifadəyə verilib. Müəssisə strateji əhəmiyyət daşıdığından ildırımötürücü qurğu və yanğından mühafizə sistemi də quraşdırılıb.

Hər il olduğu kimi, cari ilin bu dövründə də Naxçıvan Muxtar Respublikası "Bərəkət Buğda Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətində əsas diqqət sahələrdən tədarük olunacaq taxılın qəbuluna yönəldilib. Taxıl ehtiyatları anbarının müdiri Elşən Mirzəyevdən aldığımız məlumata görə, anbarlarda mövsümə hazırlıqla əlaqədar kompleks tədbirlər görülüb, havalandırma sistemində, ayrı-ayrı anbarlarda cari təmir işləri aparılıb, avadanlıqlar yağlanıb, rəqəmsal tərəzi mütəxəssislər tərəfindən yoxlanılıb. Laboratoriyaya baxış keçirilib, anbarlarda ziyanvericilərə qarşı dərmanlama işləri aparılıb. Müsahibimizin bildirdiyinə görə, əvvəlki illərdə olduğu kimi, bu il də taxıl qəbulunu yüksək səviyyədə həyata keçirəcəklər: "Hazırda görülmüş tədbirlər nəticəsində torpaq mülkiyyətçilərindən taxıl qəbulu üçün lazımi imkanlarımız var. Müəssisədə yeni quraşdırılmış avadanlıqlar beynəlxalq standartlara uyğun olaraq bütün dənli bitkilərin nəmliyini kondisiya halına salmağa şərait yaradır. Türkiyə istehsalı olan avadanlıqlar saatda 12 ton çəkidə bütün dənli bitkilərin qurudulmasını həyata keçirir. Bu avadanlıq vasitəsilə taxılı qurudur və ehtiyat anbarlarına yığırıq".



Muxtar respublikamızda sahibkarlığın inkişafına göstərilən dövlət qayğısının nəticəsidir ki, bu gün torpaq mülkiyyətçilərinə güzəştli şərtlərlə kreditlər və lizinq yolu ilə müasir kənd təsərrüfatı texnikaları verilir, "Naxçıvan Aqrolizinq" ASC-nin rayon bazalarında aqrotexniki xidmət sahədən köməkliklər göstərilir. Həmçinin kənd təsərrüfatı məhsulları istehsalçılarına sərf etdikləri yanacaq və motor yağlarına görə dövlət tərəfindən hər hektar buğda sahəsi üçün 100 manat, arpa əkini sahəsi üçün 50 manat ödənilir, mineral gübrələr isə 70 faiz güzəştlə verilir. 2015-ci ildən lizinqin şərtlərinə dəyişiklik edilib, alınan kənd təsərrüfatı texnikalarının ümumi dəyərinin 40 faiz həcmində güzəşt tətbiq olunub ki, bu da hər bir torpaq mülkiyyətçisinin ailə büdcəsinə müsbət təsir göstərib, onun əkib-becərmək əzmini daha da artırıb.

Məhsulun vaxtında toplanılması və münasib qiymətə satılması da diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası "Bərəkət Buğda Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətindən aldığımız məlumata görə, cəmiyyətdə qəbul olunan 1 kiloqram buğda və qarğıdalı 30 qəpikdən, arpa isə 25 qəpikdən təhvil götürüləcək və dəyəri də yerində ödəniləcəkdir.

Bəli, muxtar respublikamızda strateji əhəmiyyətli məhsula – taxıla olan tələbatın daxili imkanlar hesabına ödənilməsi istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verib. Taxılçılıqda yeni, səmərəli toxum materialının tədarükü, becərmənin yüz faiz mexanikləşdirilməsi, gübrə normalarının tətbiqi, növbəli əkin dövriyyəsi, suvarmaların şırım üsuluna keçirilməsi məhsul istehsalının artımına səbəb olub. Xatırladaq ki, 2016-cı ildə 31 min 579 hektar sahədən 94 min 117 ton taxıl tədarük edilib, hektardan məhsuldarlıq 29,8 sentner olub. 2017-ci ilin bol məhsulunun əsası ötən ilin payızında qoyulub, 17 min 465 hektar sahədə buğda, 5035 hektar sahədə arpa olmaqla, ümumilikdə, 22 min 500 hektar sahədə payızlıq taxıl əkini keçirilib, suvarma suyuna olan tələbat vaxtlı-vaxtında ödənilib.

✍ **Səbuhi HƏSƏNOV**

*Şahbuz rayonunun Kolanı kəndində "Mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən torpaq mülkiyyətçiləri tərəfindən ödənilən məcburi dövlət sosial sığorta haqlarının mahiyyəti və bu sahədə tətbiq olunan elektron xidmətlər" mövzusunda maarifləndirici tədbir keçirilib.*

# Torpaq mülkiyyətçilərinin iştirakı ilə maarifləndirici tədbir

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun və Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə əvvəlcə Şahbuz Rayon İcra Hakimiyyəti başçısının müavini Tural Quliyev çıxış edərək mövzunun əhəmiyyətindən bəhs edib.

Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin baş məsləhətçisi Tural Cəfərov torpaq üzərində mülkiyyətin növlərindən danışaraq torpaqların keyfiyyətinə görə 4 qrupa ayrıldığını bildirib. Həmçinin torpaq üzərində hüquqi və fiziki şəxslərin xüsusi mülkiyyət hüququ, dövlət və bələdiyyə torpaqlarının özəlləşdirilməsi, alqı-satqısı, vərəsəliyə keçməsi, bağışlanması, dəyişdirilməsi və torpaqla bağlı digər əqdlərin bağlanma şərtləri tədbir iştirakçılarının nəzərinə çatdırılıb, torpaq sahələri üzərinə yaranan hüquqların dövlət qeydiyyatına alınmasının önəmi vurğulanıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun Gəlirlər şöbəsinin müdiri Əli Həsənov mövzu ilə bağlı çıxışında kənd təsərrüfatına yararlı torpaq sahəsi olan torpaq mülkiyyətçilərinin ödəməli olduqları məcburi dövlət sosial sığortahaqqı barədə məlumat verib.

Qeyd olunub ki, muxtar respublikada məcburi dövlət sosial sığorta haqlarının ödənilməsində mütərəqqi üsullar tətbiq edilməkdədir. Məcburi dövlət sosial sığortahaqqı ödəyiciləri məcburi dövlət sosial sığorta haqlarını həm fondun internet səhifəsindən plastik bankomat kartları vasitəsilə, həm banklarda nağd qaydada, həm də yerli poçt şöbələri vasitəsilə ödəyə bilirlər.

Sonra tədbirdə fondun əməkdaşlarından Toğrul Hüseynov, Rza Qarayev, fondun Şahbuz rayon şöbəsinin müdiri vəzifəsini müvəqqəti icra edən Nihad Rəhimli çıxış ediblər.

Tədbirin sonunda torpaq mülkiyyətçilərini maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

*Tarixi abidələrimiz milli sərvətimizdir*

# Naxçıvan tarixi abidələr diyarıdır



***Azərbaycanın ən qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan diyarı qədim və orta əsrlər zamanı yaradılmış müxtəlif təyinatlı tarix-mədəniyyət abidələri ilə çox zəngindir. Bu abidələrin bir qismi zaman keçdikcə təbii qüvvələrin və fəlakətlərin təsirindən, müharibələr zamanı məhv olaraq sıradan çıxmış, müəyyən hissəsi zəmanəmizədək gəlib çatmışdır. Ancaq indiyədək qalan bu abidələrin də getdikcə aşınaraq və dağılaraq məhv olması təhlükəsi vardır.***

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev AMEA Naxçıvan Bölməsinin yaradılması münasibətilə 12 avqust 2002-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədəki geniş nitqində bölgədəki abidələrdən bəhs edərkən ***"Naxçıvan ərazisini götürsək, bu kiçik ərazidə həddindən çox dünya miqyaslı tarix-memarlıq abidələri var. ...Onlar yüz illərlə durub, yaşayıbdır. Onlara yüz illərlə heç qayğı da göstərilməyibdir, hətta müxtəlif proseslər zamanı, bəzən müharibələrlə, yaxud da ki, başqa hadisələrlə əlaqədar onların uçurdulması, dağıdılması halları olubdur"***, – deyən ulu öndər Heydər Əliyev çıxışının sonunda ***"Bizim millətimizin keçmişini, tarixini, mədəniyyətini, onun mənliyini bizim alimlərimiz, ziyalılarımız tədqiq etməsələr, xalqımıza, dünyaya göstərməsələr, sübut etməsələr, bəs bunu kim edəcəkdir? Bax bütün bu səbəblərdən mən Naxçıvan Muxtar Respublikasında Elmlər Akademiyasının bölməsinin yaradılması haqqında qərar qəbul etmişəm"*** fikrini xüsusi vurğulamışdır. Bununla da, ulu öndər Heydər Əliyev Azərbaycan tarixinin tərkib hissəsi kimi Naxçıvan tarixinin, ərazidəki tarix-mədəniyyət abidələrinin hərtərəfli öyrənilməsini və xalqımıza, beynəlxalq ictimaiyyətə çatdırılmasını, təbliğ olunmasını tədqiqatçılar, xüsusilə AMEA Naxçıvan Bölməsində çalışan tarixçi-alimlər qarşısında aktual bir vəzifə kimi qoymuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov abidələrin əsaslı şəkildə tədqiq edilməsi, öyrənilməsi, siyahıya alınması, bərpa edilməsi və gələcək nəsillərə çatdırılması işinin daha sistemli şəkildə aparılmasını təmin etmək məqsədilə 2005-ci il 6 dekabr tarixdə "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix-mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" Sərəncam imzalaması, bu sərəncama əsasən Naxçıvan Muxtar Respublikası tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili məqsədilə yaradılan komissiyaya Ali Məclis Sədrinin özünün rəhbərlik etməsi bu işə yüksək dərəcədə önəm verilməsinin göstəricisi kimi diqqəti cəlb edir.

Bu sərəncamdan irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə AMEA Naxçıvan Bölməsinin və Naxçıvan Dövlət Universitetinin alimləri 2006-2007-ci illərdə, demək olar ki, muxtar respublika ərazisindəki yaşayış məskənlərinin hamısına səfərlər etmiş, həmin yerlərdə indiyədək qalan tarix-mədəniyyət abidələrinin əksəriyyətini qeydə almış, ilkin tədqiq etmiş, fotoşəkillərini götürmüş, onlar haqqında məlumatlar toplamışlar. Qeydə alınan və 788-i elmi dövriyyəyə ilk dəfə daxil edilən 1165 abidənin bu məlumatlar əsasında əhəmiyyətinə görə təsnifatı verilmişdir. 56-sı dünya, 459-u ölkə, 650-si yerli əhəmiyyətli tarixi abidənin hamısı haqqında pasport-qeydiyyat kartları hazırlanmışdır. Həmin kartlarda abidənin inventar nömrəsi, adı, tipoloji mənsubiyyəti, tarixi, müasir istifadə xarakteri, texniki vəziyyətinin xarakteristikası, mühafizə dərəcəsi, qısa təsviri öz əksini tapmışdır. Abidələrin fotoşəkli də əlavə olunan bu kartlar tədqiqatçıda abidə haqqında ümumi təsəvvür yarada bilir.

Qeydə alınan və pasportlaşdırılan bu abidələrin tam siyahısı Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 21 noyabr tarixli 98 nömrəli qərarı ilə "Naxçıvan Muxtar Respublikası ərazisindəki daşınmaz tarix və mədəniyyət abidələrinin dünya, ölkə və yerli əhəmiyyət dərəcəsinə görə bölgüsü" şəklində təsdiq edilmişdir. Bundan sonra həmin siyahı 2009-cu ildə "Naxçıvan Muxtar Respublikası ərazisindəki dünya, ölkə və yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri" adı ilə kitab şəklində nəşr olunmuşdur.

Həmin vaxtdan keçən müddət ərzində AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşları çöl tədqiqatları zamanı bölgədəki tarix-mədəniyyət abidələrinin qeydə alınması işini davam etdirmiş və elmə məlum olmayan yeni abidələr aşkar edərək onlar haqqında məlumatlar toplamışlar. Nəticədə, hazırda muxtar respublika ərazisində qeydə alınaraq pasportlaşdırılan abidələrin sayı 1218-ə çatmışdır. 57-si dünya, 496-sı ölkə, 665-i yerli əhəmiyyətli olan bu abidələrdən 68-i Naxçıvan şəhərində, 221-i Şərur, 155-i Babək, 307-si Ordubad, 205-i Culfa, 93-ü Kəngərli, 138-i Şahbuz, 31-i Sədərək rayonlarında qeydə alınmışdır. Qeydə alınaraq pasportlaşdırılan bu abidələrdən 841-i yeni aşkar olunmuş və ilk dəfə elmi dövriyyəyə daxil edilmişdir.

Yüksək dövlət qayğısı sayəsində bölgədəki tarix-mədəniyyət abidələrinin qeydə alınaraq pasportlaşdırılması çox mühüm elmi, siyasi və tarixi əhəmiyyətə malikdir. Yaşadığımız günlərdə, yaxud da gələcəkdə tədqiqatçılar hər hansı bir abidə haqqında hazırlanan və onun haqqında məlumatları özündə əks etdirən "Qeydiyyat kartı"na baxarkən hansı yaşayış məskənində hansı abidənin olması haqqında ilkin məlumat əldə edə bilərlər. İkinci tərəfdən, abidələrin böyük bir hissəsi açıq havada olduğundan onların məhv olması, sıradan çıxması ehtimalı çoxdur. Bu mənada, qeydiyyat kartları müxtəlif səbəblərdən sıradan çıxan hər hansı bir abidə haqqında gələcək nəsillərə, xüsusilə tədqiqatçılara məlumat çatdıran qaynaq kimi çox mühüm əhəmiyyət kəsb edir. Digər tərəfdən, sistemli şəkildə aparılan bu iş ermənilərin Naxçıvana qarşı ərazi iddialarını puça çıxaran çox böyük bir hadisə kimi diqqəti cəlb edir.

Məlumdur ki, bədnam erməni alimlərinin Naxçıvana ərazi iddialarında bölgədəki tarix-mədəniyyət abidələrinin ermənilərə məxsus olmasını sübut etmək cəhdləri xüsusi yer tutur. Əllərində heç bir əsas, sübut, tarixi fakt olmasa da, onlar beynəlxalq ictimaiyyəti XX əsrin əvvəllərində guya Naxçıvanda ermənilərə məxsus 27-30 min abidə olmasına inandırmağa çalışırlar. Ancaq ərazidə mövcud olan tarix-mədəniyyət abidələrinin pasportlaşdırılması bu iddianı qəti şəkildə altüst edir. Çünki qeydə alınaraq pasportlaşdırılan müxtəlif təyinatlı 1218 tarix-mədəniyyət abidəsi içərisində bir dənə də olsun erməni mənşəli abidəyə təsadüf olunmamışdır.

Qeyd etmək lazımdır ki, əməkdaşlarımız tarix-mədəniyyət abidələrinin pasportlaşdırılması ilə əlaqədar muxtar respublikanın yaşayış məskənlərində material toplayarkən bölgədə mövcud olan yer-yurd (şəhər, kənd, dağ, dərə, təpə, düz, çay, göl, yaylaq, otlaq, biçənək, məhəllə və sair) adları ilə də maraqlanmış, ancaq heç bir erməni mənşəli toponimə rast gəlməmişlər. Ona görə də qətiyyətlə demək olar ki, Naxçıvan Muxtar Respublikasında qeydə alınan abidələr, toplanılan şifahi materiallar və sair, həmçinin bu abidələr əsasında Azərbaycan və ingilis dillərində hazırlanmış "Naxçıvan abidələri ensiklopediyası" Naxçıvan abidələri haqqında beynəlxalq ictimaiyyətə dəqiq məlumat çatdırılması, ərazinin aborigen sakinlərinin qədim vaxtlardan Azərbaycan türklərinin olması və erməni iddialarının əsassızlığını sübut etmək üçün çox sanballı bir qaynaqdır.

*Abidələrin pasportlaşdırılması işi davam etdirilir və davam etdiriləcəkdir. Düşünürük ki, gələcəkdə də muxtar respublika ərazisində indiyədək elmə məlum olmayan yeni tarix-mədəniyyət abidələri aşkar olunacaq və onların qeydiyyatı aparılacaqdır.*

**Fəxrəddin SƏFƏRLİ**
***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü***

## Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyinə həsr olunmuş konfrans keçirilib

Naxçıvan Dövlət Texniki Kollecində keçirilən konfransı giriş sözü ilə Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdir əvəzi Elşən Qəbulov açaraq ali təhsil ocağının muxtar respublikada kadr potensialının gücləndirilməsinə verdiyi töhfələrdən söz açıb.



Universitetin tədris işləri üzrə prorektoru, dosent Surə Seyid Naxçıvan Dövlət Universitetinin yaranma tarixi, inkişaf yolu, beynəlxalq əlaqələri və nailiyyətləri barədə danışıb. Vurğulanıb ki, göstərilən yüksək dövlət qayğısı sayəsində universitetin tədris korpusları yenidən qurulub, auditoriyalar, kabinə və laboratoriyalar ən müasir texnoloji avadanlıqlarla təchiz olunaraq müəllim və tələbələrin istifadəsinə verilib. Məhz bu diqqət və qayğının nəticəsidir ki, Naxçıvan Dövlət Universiteti iki dəfə – 2014-cü ildə 799 balla və 2017-ci ildə 827 balla Azərbaycan ali təhsil müəssisələri içərisində 1-ci yerə layiq görülüb.

Azərbaycan tarixi kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev, universitetin Tədris şöbəsinin müdiri, dosent Rafiq Rəhimov, Ümumi tarix kafedrasının müdiri, dosent İlqar Kəngərli çıxış edərək təmsil etdikləri universitetin istər təhsilin və tədrisin keyfiyyətinə, istərsə də maddi-texniki bazanın imkanlarına görə dünyanın qabaqcıl universitetlərindən heç də geri qalmadığını, burada gələcəyin mütəxəssislərinin yetişməsi üçün lazımi şəraitin mövcud olduğunu qeyd ediblər.

Texniki Kollecin direktoru Asəf Ruşanov, Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbin direktoru Gülşən Ağayeva, 12 nömrəli tam orta məktəbin direktoru Əli Novruzov, 10 nömrəli tam orta məktəbin direktoru Əkbər İbrahimov, Naxçıvan Şəhər Təhsil Şöbəsinin metodkabinet müdiri, pedaqogika üzrə fəlsəfə doktoru Qızıllı Əliyeva, Təhsil Şöbəsinin baş məsləhətçisi Gülxanım Orucova konfransda çıxış edərək əldə etdikləri nailiyyətlərə görə məhz həmin ali təhsil ocağının professor-müəllim heyətinə borclu olduqlarını bildiriblər.

Sonda "Naxçıvan Dövlət Universitetinin inkişaf yolu" adlı film nümayiş olunub.

**Nərmin CABBAROVA**

## Naxçıvanlı gənc alim Rusiya Federasiyasının Təbiətşünaslıq Akademiyasının professoru seçilib

AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun Sorbsiya prosesləri laboratoriyasının rəhbəri, kimya üzrə fəlsəfə doktoru, dosent Günel Məmmədova Rusiya Federasiyasının Təbiətşünaslıq Akademiyasının professoru seçilib. Gənc alim bu ada elm sahəsindəki xidmətlərinə, sözügedən müəssisə ilə əlaqələrin inkişafındakı fəaliyyətinə görə layiq görülüb.

Qeyd edək ki, Günel Məmmədova 100-dən çox elmi məqalənin, 3 kitabın müəllifidir. Onun yerli xammal əsasında alınan "Erionit tipli seolitin alınma üsulu" və "Tomsonit tipli seolitin alınma üsulu" adlı ixtiraları Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin patentinə layiq görülüb.

Bundan əlavə, gənc alim ötən il Rusiyanın Krasnoyarsk şəhərində fəaliyyət göstərən Elmi-İnnovasiya Mərkəzi tərəfindən elmi tədqiqatların inkişafında roluna görə fəxri fərmanla təltif olunub. Günel Məmmədovanın bir neçə məqaləsi ABŞ-ın nüfuzlu "Şüşənin fizikası və kimyası" (Glass Physics and Chemistry) jurnalında rus və ingilis dillərində nəşr edilib.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Sağlam ailə sağlam gələcəyin təminatıdır

Şahbuz rayonunun Keçili Kənd Mərkəzində "Ailələrdə sağlam həyat tərzinin aşılanması, reproduktiv sağlamlıq, erkən və qanqohumluğu nikahlarının fəsadları" mövzusunda növbəti tədbir keçirilib. Şahbuz Rayon İcra Hakimiyyəti başçısının müavini Mətanət Məmmədova belə tədbirlərin əhəmiyyətindən danışıb.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova "Ailədə qadının sağlam həyat tərzi aşılamasında əsas rolu" mövzusunda çıxış edərək bildirib ki, ailədə sağlam həyat tərzinin formalaşmasında qadının rolu böyükdür. Bu gün dünyaya gələn uşağı milli ruhda böyütmək, cəmiyyətə layiqli vətəndaş hazırlamaq baxımından qadınların üzərinə böyük məsuliyyət düşür. Ana övladını mövcud ictimai şəraitdə həyata hazırlamalı, ailə şəraitində şəxsiyyətin normal şəkildə formalaşması üçün ona zəruri olan bilik, bacarıq və vərdişləri mənimsətməlidir. Qadınlarımız nəsillərarası münasibətin qorunub saxlanmasına, ailələrdə böyüyən övladlarının bütün əxlaqi keyfiyyətlərə yiyələnməsinə, torpağına, elinə bağlı ruhda tərbiyəsinə çalışmalı, qanqohumluğu, erkən nikahlara qarşı çıxmalı, buna şərait yaratmamalıdırlar. Faktdır ki, tərəflər lazımi tibbi müayinədən keçmədikdə bu nikahlardan çox zaman sağlamlıq imkanları məhdud uşaqlar dünyaya gəlir.

Ramilə Seyidova qeyd edib ki, komitənin apardığı təhlillərə görə muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların 6,67 faizi və ya 133 nəfəri Şahbuz rayonunda yaşayır. Bu da rayon üzrə uşaqların 1,49 faizini təşkil edir.

Sonra Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-ginekoloqu, tibb üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva "Hamilə qadınların qidalanması, gigiyenası və qadınlarda virus hepatitlərinin fəsadları" mövzusunda çıxış edərək qadınların sağlamlıqlarının qorunması yolları, reproduktiv sağlamlıq, həmçinin Şahbuz rayonu üzrə doğulan sağlamlıq imkanları məhdud uşaqların əsas xəstəliklərinin – sinir sistemi xəstəliklərinin, anadangəlmə anomaliyalar (inkişaf qüsurları), deformasiyalar və xromosom pozğunluqları, psixi, davranış pozğunluqları və qan dövranı sistemi xəstəliklərinin yaranması səbəbləri barədə slayd vasitəsilə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Sonda iştirakçıların sualları cavablandırılıb, onlara müvafiq mövzularda maarifləndirici broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Milyonlarla qızılgül...













***Təbiət qoynunda böyüyən hər bir bitki, torpaqdan ucalan hər bir yaşıl fidan insana zövq verir. Yaşadığımız mühiti çiçəklər, güllər və onların ətri, rəngarəngliyi daha çox bəzəyir. Cürbəcür çiçəklər və güllər bizə sevinc, fərəh, inam gətirir. Güllər bizi öz xoş ətri və gözəlliyi ilə məftun edir, çünki onlar təbiətin yaratdıqlarından ən mükəmməlidir.***

Dünya binə olandan, torpaq üzərində şəhərlər salınandan bəri güllər öz əsrarəngizliyi ilə insanları valeh edib. Bağlarda-bağçalarda yetişdirilən gül-çiçəklərin bolluğu və rəngarəngliyi həmin bağın sahibinin xoş gün-güzəranından, yaxşı əhval-ruhiyyəsindən və zövqlü olmasından xəbər verib. Güllər öz mistik təsirləri ilə incəsənət adamlarının ən ilhamverici qaynağı olub, şairlər onları ən gözəl sözlərlə vəsf edib, rəssamlar təbiətin bu bənzərsiz nümunələrinin əksini kətan üzərinə köçürüb, yazıçılar onlar haqqında romanlar yazıblar. Təsadüfi deyildir ki, dünyanın ən məşhur dedektiv yazarlarının əsərlərində gül açar rolu oynayıb, bu əsərlərin kulminasiya nöqtəsinin ən vacib elementlərindən biri olub. Güllər həm də müharibələrə simvol olub, yüzillik müharibənin başa çatmasından az sonra İngiltərənin öz daxilində başlayan müharibəyə "al qızılgül" və "ağ qızılgül" adı verilib. Peyğəmbərimiz Məhəmməd (s.a.s) gülləri çox sevib, onları iyləməkdən zövq alıb, öz səhabələrinə də gül qoxulamağı, bununla da, ürəyi qüvvətləndirməyi, zehni təravətləndirməyi tövsiyə edib. İstanbulu türklərə ərməğan edən Fatih Sultan Mehmet nəqqaş Sinan bəyə çəkdirdiyi portretdə gül qoxulayaraq təsvir olunub. Gül iyləməklə fatehlərin fatehi özündən sonrakı nəsillərə də bir ismarıc buraxıb: "Mən incəsənət adamı, incə ruhlu, dünyagörmüş insanam". Ancaq fatehin barmağındakı üzük digər mənanı ifadə edib: zehgir adlı üzük ox atmaq üçün işə yarayırdı. Üzüyün altındakı qarmaq yayı çəkmək üçün idi. Bununla da, fateh demək istəyib ki, gülü sevdiyim qədər, müharibəni də, döyüşü də sevirəm.

*Ey gül, səni bilməm necə ustad çəkibdir,*
*Nəqqaş-i əzəl eyləyib icad, çəkibdir.*

Erix Fromm "Yaradıcılıq" adlı essesində belə bir misal çəkir. "Biz qızılgülə baxıb deyirik: bu, qızılgüldü və ya mən qızılgül görürəm. Bu, ilkin təəssüratdı. Ortada bizim beynimizin məhsulu yoxdu. Bizə gülün adını öyrədiblər və gözlərimiz var. Əsas məsələ isə baxmaqla görmək arasındakı fərqdədi". Görmək deyəndə, Fromm gözlə yox, beyinlə görməyi nəzərdə tuturdu. Dində buna bəsirət gözü də deyilir.

Dünyada az-az xalqlar tapılar ki, Azərbaycan xalqı qədər gülə önəm və dəyər versin. Elə bunun nəticəsidir ki, Azərbaycanda gülçülük mədəniyyəti min illər bundan öncə formalaşıb, hər gülün öz dəyəri, hər rəngin öz mənası olub. Hətta güllərin sayı, tikanlarının çoxluğu, azlığı da ayrıca məna və dəyər əxz edib, dastanlara, romanlara və şeirlərə, qəzəl və qəsidələrə mövzu olub. İslamın təşəkkülündən sonrakı dövrdə isə gülə Tanrının müqəddəs bir hədiyyəsi, insan sağlamlığı üçün əvəzolunmaz bir vasitə kimi baxılıb, miniatürlərdə yer alan güllər xüsusi anlam kəsb edib. Bəlkə də, elə bu səbəbdəndir ki, qədim diyarımızdakı tarixi abidələrdə gül ornamentlərinə xüsusi yer ayrılıb. Ancaq abidələrin üzərindəki güllərə bir çoxları bəzək elementi kimi baxsa da, bu güllərin hər birinin öz mənası, öz yeri var. Erix Frommun da dediyi kimi, əsas məsələ baxmaqla görmək arasındakı fərqdədi. Biz baxmaqdan daha çox görməyə üstünlük verməliyik.

### *Paytaxtım müstəqilliyimin çiçək hədiyyəsi, gül buketidir*

May və iyun aylarında Naxçıvan şəhəri gül buketini xatırladır. Bu şəhərin hər küçəsində, bağında əlvan güllər açır, insanlara xoş əhval-ruhiyyə bəxş edir, gözləri yaşayıb-yaratmağa həvəsləndirir. Tikanlardan keçilməz olan bağlardan indi min bir çeşid güllərin rayihəsi, ətri duyulur. Park və bağların, yaşıllıqların daha gözəl görünməsində ağac və kollarla bərabər, yaşıllaşdırma işlərində istifadə olunan gül-çiçəklərin də xüsusi yeri vardır. Gül xalqımızın həyatında geniş rol oynadığından nəinki yaşıllıqların bəzəyi, eləcə də el və ailə şənliklərinin əvəzolunmaz təbiət möcüzəsidir. Bayramlarda süfrələrə gül qoyulur, ondan sonra ətrafı müxtəlif nemətlərlə bəzədilir, yeni ailə quran bir gənc gələcək həyat yoldaşına paklığın, zərifliyin və sədaqətin simvolu olan gül hədiyyə edir. Gülər, Gülnar, Gülnaz, Gülarə, Gülyanaq, Gülçin və qadınlarımızın daşıdığı bir çox adlar xalqımızın gülə olan məhəbbətini, ehtiramını ifadə edir. Bu gün Naxçıvan şəhərinin küçə, park və meydanlarının bəzədilməsi müxtəlif formada aparılmaqla əhalinin zövqünü oxşayır. Landşaft memarlığı əsasında yaşıllaşdırmada müxtəlif kompozisiyaların qurulması Naxçıvan şəhərində müasir dövrün ən vacib xüsusiyyətlərindən biridir. Parkların, bağların, meydanların, yolların tərtibatında kompozisiyalar növ zənginliyi və dekorativ əlamətlərinə görə seçilir. Bağbağçaların tərtibatında rəng qammalarına uyğun olaraq bitkilərin seçimindən istifadə edilir, yazda parlaq güllərdən, yayda isə ağ, mavi, bənövşəyi rəngli güllərdən istifadə olunur. Gül əkilmiş sahələrə xüsusi qayğı göstərildiyindən bu sahələr həmişə təmiz və səliqəli olur, bitkilərin sahələrinin kompozisiyasının tərtibatında əsas elementlərdən biri olan rəng çalarlarının seçilməsinə önəm verilməsi insanlarda xoş əhval-ruhiyyə yaradır. Yaxşı seçilmiş rənglər insanlara xoş təəssürat bağışlayır. Qırmızı, narıncı, sarı, göy və bənövşəyi rəngli güllər bütün park və xiyabanların bəzəyidir və bu qədim diyarın sakinləri ilə bərabər qonaqları da heyran edir.

Bağlarda açan hər bir gülün rəngi bir məna daşıyır – qırmızı gül məhəbbət və sonsuz hörmətin, çəhrayı gül minnətdarlıq, təşəkkür və təqdirin, ağ gül saf duyğuların və arzuların, sarı gül iftixar hissi və ayrılığın tərənnümüdür. Naxçıvan sakinləri arasında güllərin sayı ilə də bağlı bir sıra inanclar vardır. 1, 3, 5, 7, 9 və 101 saylarının gül hədiyyə edənlər və alanlar üçün ayrıca mənaları vardır. Tək sayda güllər şənlik yerlərinə, cüt sayda güllər isə hüzr yerlərinə aparılır. Elə gül növləri vardır ki, baba-nənələrimiz onları bağçada əkməyi nəhs hesab edirlər. Qırmızı, ağ və sarı güllər tək başlarına və ya dəstə halında bir çox şey deyirlər. Əgər çiçəklərin dili və fərqli rəngləri barədə məlumatlı olsanız, hədiyyə olaraq göndərdiyiniz çiçəyin həqiqi mənasını biləcəksiniz. Həmçinin seçim etməkdə və ya mənasının yanlış ola biləcəyini düşündüyünüz halda, sizin üçün yuxarıda qeyd etdiyimiz güllərdən də istifadə edə bilərsiniz.

### *Əgər Niko Pirosmani bu günün Naxçıvanında yaşasaydı, "Milyon-milyon qızılgül" mahnısının yaranma şansı sıfra bərabər idi*

Əksər qadınlarımızın ömür-gün yoldaşlarından istədiyi bir gül dəstəsidir. Hədiyyə olunan bir dəstə gül qadınlarımız üçün qayğı, diqqət və nəvazişin, sədaqətin simvoludur. Nə qədər paradoksal olsa da, qeyd etmək lazımdır ki, incəsənətin kino, teatr kimi sahələri təşəkkül tapandan bəri "bir dəstə gülü mənə çox gördün" ifadəsi filmlərdə və tamaşalarda baş rollarda oynayan qadınların əsas şikayət cümləsi olub. "Bir dəstə gülün çox görülməsinə" zaman-zaman müxtəlif bəhanələr gətirilsə də, kişilər bu şikayətə "Bir dəstə gül nədir ki? Maaş alan kimi sənə güllərin ən gözəlin alacağam",– deyə cavab verib. Ancaq bu günün Naxçıvan şəhəri üçün belə bir arqument gətirmək ən azı insafsızlıq olar. Çünki güldən zövq almaq üçün mağazalara üz tutmaq yox, ərazidəki parka çıxmaq kifayət edər. Əsl həqiqət budur ki, indiyə qədər evinə aparmaq üçün gülkarlıqdan gül yığan heç kimə "güldən ağır" bir söz deyilməyib, ancaq şəhər sakinlərinin əksəriyyəti buna heç ehtiyac da duymur, əksinə, gülkarlıqların qorunub saxlanılması, insanların bu gülkarlıqlardan zövq alması üçün əlindən gələni edir.

Ötən günlərdə Naxçıvana turist kimi gəlmiş slovakiyalı biznesmen Jozef Hovanekin sözləri ilə bu məqaləylə tanış olan oxucuların yorğunluğunu atmaq və yazını yekunlaşdırmaq yerinə düşər: "100 il öncə Tbilisidə, Kür çayının sol sahilində Ortaçala məhəlləsində yaşayan bu qəribə rəssamı o dövrün Tbilisisində hamı tanıyırmış. Şəhərə qastrola gələn Marqarita adlı aktrisaya dərin məhəbbət bəsləyən Niko tələm-tələsik evini-dükanını satıb qızılgülə çevirir, milyonlarla qızılgülü sevdiyinin ayaqları altına səpir. Uzun illərdən sonra bu məhəbbət tarixçəsi mahnıya dönüb Nikonun tabloları kimi dünyanı gəzir. Məşhur şair Andrey Voznesenskinin yazdığı şeirə Raymond Paulsun bəstələdiyi "Milyon-milyon qızılgül" mahnısı Niko Pirosmanini bir daha yada salaraq, onun şöhrətini artırır. Ancaq Niko Pirosmani bu günün Naxçıvanında yaşasaydı, "Milyon-milyon qızılgül" mahnısının yaranma şansı sıfra bərabər idi. Çünki indi ev-eşiyi satıb milyonlarla qızılgül almağa ehtiyac yoxdur, Naxçıvan şəhərinin hər küçəsi milyonlarla qızılgülə öz qoynunda yer verib".

**Səbuhi HÜSEYNOV**

## Muxtar respublikada epidemioloji vəziyyət sabitdir

Muxtar respublikamızda may ayında epidemioloji vəziyyət sabit olub, zəhərlənmələr baş verməyib. İnfeksiya ocaqlarında profilaktik və epidemiya əleyhinə tədbirlər həyata keçirilib. Yeni doğulmuş uşaqların 98 faizi idarəolunan yoluxucu xəstəliklərə görə peyvənd olunublar. Mövsümi xəstəliklərin və zəhərlənmələrin qarşısını almaq məqsədilə müvafiq müəssisələrin rəhbərlərinə göstərişlər verilib, müəyyən ərazilərdə dezinseksiya tədbirləri həyata keçirilib.

Uşaq-yeniyetmə müəssisələri və məktəblərdə monitorinqlər, maarifləndirici tədbirlər aparılıb.

Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin əməkdaşları tərəfindən hepatit virusu ilə yoluxmaların qarşısının alınması məqsədilə vətəndaşlarla birbaşa ünsiyyətdə olan xidmət obyektlərində monitorinqlər aparılıb və müvafiq tədbirlər görülüb.

Kəskin respirator və digər infeksion xəstəliklərin qarşısının alınması məqsədilə bütün ictimai iaşə, ticarət, su təchizatı, sərhəd-gömrük məntəqələrində profilaktik sağlamlaşdırıcı əksepidemik tədbirlər həyata keçirilib.

May ayı ərzində bakterioloji laboratoriya fəaliyyətini davam etdirib, 93 su, 21 yuyuntu və 1106 digər nümunələrin müayinələri aparılıb. Obliqat qrupların bakterioloji müayinələri diqqət mərkəzində saxlanılıb, səhiyyə üzrə 394, təhsil üzrə 518, qidalanma sənayesi, ictimai iaşə və ticarət üzrə 113, kommunal sahələr üzrə 81, nəqliyyat üzrə 5 nəfər olmaqla, bütövlükdə, 1115 nəfər müayinədən keçirilib.

Sanitariya-kimyəvi laboratoriyalar şöbəsinin qidalanma gigiyenası və kommunal gigiyena laboratoriyalarında da müayinələr aparılıb.

Əhalinin sanitariya sahəsində maarifləndirilməsi məqsədyönlü şəkildə həyata keçirilib. Sanitariya-epidemioloji vəziyyətinin yaxşılaşdırılması məqsədilə muxtar respublikanın sanitariya-epidemioloji xidmət orqanları tərəfindən obyektlər sanitar-gigiyenik vəziyyətə görə yoxlanılıb, aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün xəbərdarlıqlar edilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## 30 may 2017-ci il tarixdə keçirilmiş hərracda satılmış müəssisələr haqqında məlumat

| S/s | Müəssisənin adı | Ünvanı | İstismara verildiyi il | Müəssisənin tam dəyəri | Müəssisənin satış qiyməti |
|---|---|---|---|---|---|
| 1. | "Duzdağ" hoteli | Duzdağ massivi | 2009 | 17.288.686,78 | 12.966.515,10 |
| 2. | Tədris-Ticarət Mərkəzi | Naxçıvan şəhəri | 1999 | 1.534.424,73 | 1.150.818,60 |

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 487